RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.02.00075




# TOFİQ QULİYEV'İN DRAM ƏSƏRLƏRİNƏ BƏSTƏLƏDİYİ MUSİQİ (A. SAQARELİ'NİN "XANUMA" PYESİNƏ YAZILMIŞ MUSİQİNİN BƏZI DRAMATURJİ XÜSUSİYYƏTLƏRİ)

**Mehparə Rzayeva**[1]

**ÖZET**

XX əsr Azərbaycan musiqi mədəniyyətinin ən parlaq nümayəndələrindən – Xalq Artisti, bəstəkar və dirijor Tofiq Quliyev yaradıcı ömründə müxtəlif musiqi janrlarına müraciət edərək , misilsiz əsərlər yaratmış ki, onların hər biri milli incəsənətimizin əhəmiyyətli tarixçəsinə cevrilmislər.Təqdim olunmuş məqalə bəstəkarın yaradıcılıgının tədqiq edilməmiş musiqi sahəsinə həsr edilib. Məqalədə XX əsrdə Azərbaycanda teatr sənətinin inkişafı, bu sahədə çalışmış bəstəkarların, o cümlədən də Tofiq Quliyevin töhfəsi araşdırılmışdır. Bəstəkar bu sahədə bir sıra pyeslərə musiqi bəstələyərək (V. Şekspir "On ikinci gecə" 1945, C. Cabbarlı "Yaşar" 1946, A. Saqareli "Xanuma" 1975 və s.) tamaşalara xüsusi rəng qataraq, dramaturji inkişafı dinamikləşdirmişdir. Tofiq Quliyevin musiqisini bəstələdiyi "Xanuma" pyesi 1975-ci ildə səhnələşdirilmiş ən uğurlu və tamaşaçı axınına səbəb olmuş tamaşa olmuşdur.

**Anahtar Kelimeler:** Tofiq Quliyev, dram əsərlərinə musiqi, "Xanuma" tamaşası, musiqi dili, dramaturji inkişaf, faktura,məzmun.

# МУЗЫКА К ДРАМАТИЧЕСКИМ СПЕКТАКЛЯМ ТОФИКА КУЛИЕВА

**Мехпара Рзаева**

**РЕЗЮМЕ**

Один из самых ярких представителей азербайджанской музыкальной культуры XX века–народный артист,композитор и дирижор Тофик Кулиев, на протяжении всей своей творческой жизни, обращаясь к разным музыкальным жанрам, создал черезвычайно ценные произведения,которые вошли в хронику национальной музыкальной культуры. Представленная статья посвящается музыке произведения,которая является одним из неисследованных страниц творчества Тофика Кулиева. В статье анализируется театральная искусства Азербайджана в XX веке и исследована особенность музыкального языка Тофика Кулиева. Композитор написав музыку к спектаклям («Двенадцатая ночь» - В. Шекспир 1945 г., «Яшар» - Дж. Джаббарлы 1946 г., «Ханума» - А. Сагарелли 1975 г. и др.) усиливал динамику собственно музыкальной драматургии. Спектакль «Ханума» вплоть до сезона 1975-76 г.г. имел широкий зрительский успех.

**Ключевые слова:** Тофик Кулиев, музыка к драматическим спектаклям, «Ханума», музыкальный язык, драматургическая развития, фактура,содержание.

---

[1] Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, E-mail: xadicar@mail.ru

# MUSIC FOR THE DRAMATIC PERFORMANCE TOFIG GULIYEV

**Mehparə Rzayeva**

**ABSTRACT**

One of the most prominent representatives of the Azerbaijani musical culture of the twentieth century, the People's Artist, composer Tofig Guliyev dirizhor, throughout his creative life, referring to the different musical genres, has created extremely valuable works, which were included in the chronicle of the national musical culture. Presented article is dedicated to the works of music, which is one of the unexplored pages of creativity Tofig Guliyev. The article analyzes the theatrical art of Azerbaijan in the twentieth century, and to investigate the features of the musical language Tofig Guliyev. The composer has written music for plays ("Twelfth Night" - William Shakespeare 1945 "Yashar" - J. Jabbarlı 1946 "Khanum" - A. Sagarelli 1975, and others.) Enhanced the dynamics of the actual musical drama. Performance "Khanum" until season 1975-76 GG He had a wide audience success.

**Keywords**: Tofig Guliyev, music to drama performances, "Khanum", musical language, dramaturgical development, texture, content.

## GİRİŞ

Azərbaycan hələ XX əsrin əvvəllərində "qara qızılın" neftin hasilatına görə dünyanın əsas mərkəzlərindən biri idi. Ölkənin ümumi inkişafı və hərtərəfli mədəni əlaqələri bir çox görkəmli alimlərin, incəsənət xadimlərinin Azərbaycana gəlişinə səbəb olmuşdur. Məhz teatr cəmiyyətin mənəvi həyatının önəmli bir sahəsi kimi özündə bir çox prosesləri əks etdirirdi. Teatr və musiqinin qarşılıqlı əlaqəsi və bir-birinə təsiri müxtəlif dövrlərdə çeşidli formalarda özünü biruzə vermişdir.

Artıq XX əsrin əvvəllərində Azərbaycan və rus aktyorları, musiqiçiləri və bəstəkarları arasında sıx yaradıcılıq əlaqələri yaranmışdır ki, bu da öz növbəsində daimi münasibətlərin qurulmasına səbəb olmuşdur. Rusiyanın məşhur incəsənət xadimlərinini F. Şalyapinin, V. Krmissarjevskayanın Bakıya gəlişləri məhz bu dövrləri əhatə edir. O dövrdə Azərbaycanda M. Əzizbəyli adına Azərbaycan Akademik Dram teatrı, M. F. Axundov adına Opera və Balet teatrı, S. Vurğun adına Opera və Balet teatrı fəaliyyət göstərirdi. Bir sıra verilmiş mənbələrdən məlum olduğu kimi inqilabaqədərki dövrdə Azərbaycanda dram teatr tamaşalarında musiqi tərtibatı çox vaxt səthi xarakter daşıyırdı. Tamaşaların antraktlarında aşıqların, sazəndələrin və "Şərq orkestri"nin ifasında bilavasitə pyesin məzmunu ilə bağlı olmayan musiqi nömrələri səslənirdi. Bir sözlə, bu dövrlərdə musiqi hələ tamaşaların dramatik komponentinə çevrilməmişdir (1, s.57).

Artıq əsrin 20-30-cu illərində mövcud olmuş "Satiragitteat" tamaşalarının musiqi tərtibatına daha dərin məna verərək tamaşanın ümumi ruhunu vurğulamaqa çalışırdı. "Satiragitteat" ("tənqid-təbliğ teatrı") tamaşalarının musiqi tərtibatında A. Zeynallının böyük əməyi olmuşdur.

Teatr bəstəkarlığı ənənələrinin özül daşlarını qoymuş bəstəkarlardan A. Zeynallı ("Sevil", "Küləklər şəhəri", "Yanğın"), Ə. Bədəlbəyli ("Müsyo Jordan"), S. Rüstəmov ("Hacı Qara"), Niyazi ("Pəri Cadu") və s. adlarını çəkmək olar. Məhz Ə. Bədəlbəylinin ilk dəfə tətbiq etdiyi bir sıra bədii vasitələr və üsullar (məsələn: xalq musiqisi janrlarının musiqisi dramaturgiyasında önəmli rol oynaması, uvertüraların mühüm dramaturju funksiya daşıması, leytmotiv sisteminin inkişafı, klassik orkestr tərkibinə xalq çalğı alətlərinin daxil edilməsi və s.) bu musiqi janrının təkamülündə müstəsna rol oynamışdır (2, s. 28).

XX əsrin 50-70-ci illərində Azərbaycanın teatr səhnələrində yeni-yeni pyeslər Q. Qarayev, F. Əmirov, C. Cahangirov, Z. Bağırov, T. Quliyev, S. Ələsgərov, S. Rüstəmov, A. Rzayev, A. Əlizadə, V. Adıgözəlov, R. Hacıyev kimi bəstəkarlar tərəfindən bəstələnmiş musiqi ilə səhnələşdirilmişdir.

Kantata, xoreoqrafik novellaların, fortepiano əsərlərinin, musiqili komediyaların və xüsusilə də Azərbaycan professional mahnı janrının inkişafında mühüm rol oynamış xalqın sevimli bəstəkarı Tofiq Quliyev öz qələmini dramatik tamaşalara musiqilərin yazılmasında olduqca məharətlə sınamışdır. Azərbaycan bəstəkarlıq məktəbinin, XX əsr Azərbaycan mədəniyyətinin ən parlaq səhifələrindən olmuş T. Quliyev M. Əzizbəyov adına Azərbaycan Akademik Dram teatrının səhnəsində tamaşaya qoyulmuş V. Şeksprin "On ikinci gecə" (1945), C. Cabbarlı "Yaşar" (1946), R. Rza "Qardaşlar" (1956), L. Tolstoy "Canlı meyit" (1970), A. Saqarelinin "Xanuma" (1975) kimi pyeslərərinə öz misilsiz musiqisini bəstələmişdir.

Müəllifin müxtəlif pyeslərə bəstələdiyi musiqi çox qısa bir zamanda məşhurluq qazanaraq tamaşaçılar tərəfindən sevilmişdir. Əfsuslar olsun ki, bu tamaşalara yazılmış musiqi materiallarının bir çoxu bugünümüzə qədər gəlib çıxmamışdır. Lakin A. Saqarelinin "Xanuma" pyesinə T. Quliyevin bəstələdiyi musiqi nümunələri M. Əzizbəyli adına Azərbaycan Akademik Dram teatrının arxivində qorunub saxlanılmışdır. Onu da qeyd edək ki, əldə olunmuş partituraya görə musiqişünas, professor Nailə Kərimovaya xüsusi minnətdarlıq bildiririk (3).

"Xanuma" 1975-ci ildə səhnələşdirilmiş, T. Quliyevin musiqisi ilə canlandırılmış ən uğurlu pyesdir. Avksentiy Saqarellinin "Xanuma" komediyası A. Şərifov tərəfindən səhnələşdirilmiş və baş obraz Xanumanın ifaçısı H. Qurbanova olmuşdur. Əsər canlı, şən və dinamik ikihissəli musiqili parodiyadır.

T. Quliyev tamaşada çılğın rəqs ritmlərindən, gürcü çoxsəsliliyindən, obrazları xarakterizə edən mahnılar, duetlər, xorlar, xüsusən də orkestrdə ifa edilən lirik anlar və hətta Ştrausun "Vals"ından kiçik motivlərdən istifadə etmişdir.

Nümunə № 1




Ümumiyyətlə, T. Quliyevin tamaşaya yazılmış musiqisi dramaturji inkişafı yüksək həyacan nöqtəsində saxlayaraq, həm aktyorları enerjili edir, həm də tamaşaçıda dramaturji

musiqili səhnə bağlılığı və tamlığı təəssüratı yaradır. Bəstəkar sadəcə tamaşaya musiqi bəstələmir, o hər bir qəhrəmanın psixoloji xarakterini açmağa çalışır. Baş qəhrəman Xanumanın emosional temperamentinin musiqili obrazı alovlu rəqsində təcəssüm olunur.

Nümunə № 2



Tamaşanı simfonik orkestr müşayiət edir. Orkestrdə fortepianonun əlavə edilməsi xüsusi koloritə səbəb olur.

Ümumiyyətlə, "Xanuma" tamaşası musiqi nömrələrinin sayına görə o dövrdə səhnələşdirilmiş tamaşalardan çox-çox üstünlük təşkil edir. Tamaşaya yazılmış musiqidə Tofiq Quliyev parlaq teatr mövzusundan istifadə etmişdir. Bəstəkar bu məqamda gürcü ruhu daşıyan mahnısından, rəqslərdən istifadə etmişdir ki, bu da özünü həm orkestr səhnələrində, həm də vokal partiyalarda qəhrəmanların xarakterlərinin açılmasında əsaslı surətdə göstərir. Onu da qeyd edək ki, tamaşada müxtəlif psixologiyaya məxsus qəhrəmanların obrazları verilmişdir. Müəlliflər tamaşanı səhnələşdirərək, müasir cəmiyyətdə hələ də həyata meşşan təfəkkür ilə baxan insanların olduğunu xüsusu ilə vurğulamaq istəmişlər. Bu cür insanları knyaz, Kobato kimi obrazlar təcəssüm etdirirlər. Ülvi və saf məhəbbət hisslərinin isə daşıyıcıları Sona və gənc knyazdır. Sonda da məhəbbət qalib gəlir və bütün hiyləgərliklər saf hisslərə məğlub olur.

**SONUÇ**

Tamaşanın əsas dramaturji inkişafı gənclər və yaşlı nəsil arasında dərinləşərək kəskinləşir. Həyata obyektiv baxış ilə xəsislik və oyunbazlıq daim mübarizə aparır. Qeyd etdiyimiz kimi tamaşa ikihissəli musiqili parodiyadır. Artıq birinci hissədə bütün qəhrəmanların obrazlarının ekspozisiyası verilir. Hadisələrin inkişafında ciddi və komik səhnələrin ardıcıllaşması əsas faktor kimi çıxış edir. Birinci hissədə əsas qəhrəmanlardan biri knyazın obrazı "Yenə də təzədən evlənəcəyəm " mahnısında açılır. Mahnı iki kupletdən ibarətdir. Birinci kupletdən sonra melodiyanı orkestrdə qaboy, ikinci kupletdən sonra isə klarnet ifa etmişdir. Xanuma obrazı tamaşanın dramaturji inkişafında mərkəzi anları daha da enerjili edir. Bu obrazın tam açılmasında Tofiq Quliyev tərəfindən yazılmış musiqi müstəsna rol oynayır. Elə birinci hissədə Xanumanın obrazı mahnısında, Kobato ilə duetində, rəqsində açılır. Ümumiyyətlə, "Xanuma" tamaşa boyu kəskin xarakter dəyişkənliyinə məruz qalır. Knyazı yaşlı bir xanımı ilə evləndirib əvəzində külli miqdarda pul əldə etmək istəyən Xanuma sonradan hiylə işlədərək gənclərə kömək edir və sonda özü də evlənir. Tamaşa Xanumanın mahnı və rəqsi ilə tamamlanır.

Gənclərin lirik xaraklerlərin açılmasında isə bəstəkarın musiqisinin əhəmiyyəti danılmazdır. Tofiq Quliyevin istedadlı musiqisi süjetin inkişafında mövcud olmuş bir sıra nöqsanları doldurmağa müvəffəq olmuşdur.

Bəstəkar yazdığı musiqinin melodiyasında xramatizmlərdən istifadə edərək orkestrdəki intervallarla kəskin dissonanslıq yarada bilmişdir. Bundan əlavə o, sinkopalar və punktir ritmindən də geniş istifadə etmişdir. Metr və ritmin bir-birinə əks mütənasibliyi musiqinin xarakterinə kəskin və yüngül səslənmə bəxş edir. Musiqinin inkişafında polifoniyanın rolu danılmazdır. İmitasiyalı səslənmələr, partiyaların kontrapunktir birləşmələri – bütün bunlar səhnələrin kütləviliyini vurğulayır. Müxtəlif vokal formaların istifadə olunması nəticədə rəngarəng melodiyaya səbəb olmuşdur. "Xanuma" tamaşasında Tofiq Quliyev mahnıdan, mahnı-rəqslərdən, reçitativlərdən istifadə etmişdir.

Tamaşa 1975-ci ildə teatr sezonuna yekun vuraraq, ilin ən uğurlu tamaşası olmuşdur.

**KAYNAKLAR**


1. Süleymanova R. –Azərbaycan bəstəkarlarının teatr musiqisi (1970-2000-ci illər). Bakı, 2011, 147 s.-s. 28
2. Керимова Н. – История театральной музыки в Азербайджане. Баку, 1986, 175с. – 57 с.
3. Керимова Н. – Рукописи партитур музыки Азербайджанских композиторов к спектаклям драматического театра в XX веке. Баку, 2008, с. – 303
4.Сафарова А.Театр и время.Баку,Элм,1971,126 с.
5.Эстетика и современность.Москва,Искусство,1965,204 с.